# Xalqın oğlu, Vətənin qəhrəmanı



**Deyirlər ki, dağlar qoynunda doğulanlar böyüyəndə elə dağlar kimi vüqarlı və qürurlu olurlar. Zaqatalanın Lahıc kəndi də başı buludlara söykənən dağların qoynunda yerləşir. Ziyalı, sənət adamları ilə yanaşı, vətənpərvər, igid, cəsur oğullar zaman-zaman kəndə başucalığı gətirib, adlarını qəhrəmanlıq tariximizə böyük hərflərlə yazıblar. Böyüməkdə olan nəsillər isə igidliyi, qəhrəmanlığı həmin cəsur oğullardan öyrəniblər, onların şərəf dolu yollarını davam etdiriblər.**








9 avqust 1990-cı il başqa kənd sakinləri üçün adi bir gün olsa da, Məhəmməd kişi üçün qeyri-adi, sevinc dolu unudulmaz bir gün idi. Onun dünyaya sığmayan sevincinə, xoşbəxtliyinə səbəb ailəsində qızı Vəsilədən sonra çox arzusunda olduğu oğlunun dünyaya gəlməsi idi.

Ailəsinə, yaxınlarına böyük sevinc gətirmiş uşağın adını İsmayıl qoydular, uzun ömür və xoşbəxtlik arzuladılar. İsmayılın uşaqlığı yenicə müstəqillik əldə etmiş ölkəmizin ən çətin, ən ağır illərinə təsadüf etmişdi. Həmişə torpaqlarımıza göz dikmiş ermənilər keçmiş ittifaq süqutu uğradıqdan sonra Qarabağda baş qaldırmışdılar. Ermənistan yenicə müstəqilliyinə qovuşmuş Azərbaycanı elan olunmamış müharibəyə cəlb etmişdi.

## "Ana" və "Vətən" sözlərini sevinə-sevinə yazmışdı

Aylar, illər isə ətrafda baş verən hadisələrə məhəl qoymadan ötüb keçirdi. Hiss olunmadan arxada qalan illər İsmayılı da böyüdüb yaşdan-yaşa keçirirdi. Günlərin birində İsmayıl da sevinə-sevinə Lahıc kənd orta məktəbinə getdi. İlk müəllimi Cəvahir xanım ona hərfləri öyrətdi, sonra "Ana", "Vətən" sözlərini yazdırdı. Təbiət fənlərinə marağı çox olduğunu görən valideynləri gələcəkdə İsmayılı həkim görmək istəyirdilər. İsmayılın özü isə hələ hansı bir peşənin arxasınca gedəcəyini dəqiqləşdirməmişdi. Bir gün Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olmuş bibisi oğlu Muradı kursant geyimində kənddə gördü. İsmayıl ucaboylu, qamətli Muradla görüşüb onun boynuna sarıldı. Elə həmin gündən də onun üreyində hərbçi peşəsinə sevgi oyandı. İsmayıl hərbçi peşəsinə olan arzusunu dilinə gətirməsə də, daxilən özünü bu şərəfli yolun yolçusu kimi hiss edirdi. Dərslərinə ciddi fikir verir, özünü gələcəyin zabiti kimi görürdü.

Vətəni Azərbaycanın müharibə şəraitində olması, Qarabağın ermənilər tərəfindən işğal edilməsi onu çox incidirdi. Cəbhələrdən gələn şəhid xəbərləri İsmayıl Səmədovun erməni separatçılarına nifrət və kinini artırırdı. Ürəyi, qəlbi qisas hissi ilə döyünürdü.

Artıq İsmayıl doqquzuncu sinfi bitirmək üzrə idi. Valideynləri qərara gəlmişdilər ki, övladları təhsilini Bakıdakı Kimya Biologiya Təmayüllü Liseydə davam etdirsin. Məhəmməd kişi ilə Həlimə xanım arzularına çatdılar. İsmayıl imtahanlardan yüksək bal toplayıb liseyə qəbul oldu. Bitirəndə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini seçdi. Arzusuna çatmaq üçün o, xeyli çəkən söhbətdən sonra valideynlərini buna razı sala bilmişdi. Həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə ən yüksək balla qəbul olunanların sırasında İsmayıl Səmədovun da adı vardı. Övladlarının qazandığı uğur valideynlərini də çox sevindirdi.

## Özünü yalnız hərbi xidmətə hazırlayırdı

Ali hərbi məktəbə qəbul olması İsmayılın həyatına xeyli yeniliklər gətirdi. İlıq payız günlərində onun kursantlıq həyatı başladı. O, təhsil aldığı illərdə hərbi bilikləri mükəmməl mənimsəyir, həm nəzəri, həm də əməli məşğələlərdə fəal iştirak edirdi. Buna görə də təcrübə və səriştəsi gündən-günə artırdı. Bilirdi ki, gələcəkdə onu məsuliyyətli işlər və sınaqlar gözləyir. Gənc İsmayıl özünü zabit kimi hərbi xidmətə hazırlayırdı.

Nəhayət, İsmayıl arzusuna çataraq ilk zabit rütbəsini - leytenant paqonlarını böyük qürurla çiyinlərinə taxdı. Çox keçmədi ki, onu cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birinə göndərdilər. Xidmətə başladığı hərbi hissədə məşqlərindən qalmırdı. Müntəzəm olaraq əsgərləri ilə birlikdə çöl təlimlərində olur, döyüş atışlı çalışmaları həm gecə, həm də gündüzlər yerinə yetirirdi. Leytenant Səmədov tabeliyində olan əsgərlərə təkcə hərbi bilik və vərdişləri deyil, həm də vətənə sevgi, düşmənə nifrət hissləri aşılayırdı. Əvvəlcə əsgərlərinə istifadə edəcəkləri silahların taktiki-texniki xüsusiyyətlərini ətraflı izah edir, istər dağlıq, istər düzən, istərsə də sıx meşəlik ərazilərdə taktiki gedişləri onlara başa salır, relyefə uyğun düzgün hücum və müdafiə gedişlərini anladırdı. Komandanlıq da İsmayılın çalışqanlığını görüb onun əməyini yüksək qiymətləndirdi. Hərbi hissənin "Şərəf lövhəsi"nə İsmayıl Səmədovun da şəkli vuruldu.

Gənc zabit xidmətə başlayandan bir il sonra özünü daha məsuliyyətli və çətin qoşun növündə - xüsusi təyinatlı qüvvələrdə sınamaq qərarına gəldi. Xeyli hərbçinin cəlb olunduğu altı aylıq təlim kursunu yalnız 20 zabit uğurla başa vurdu. Onlardan biri də leytenant İsmayıl Səmədov idi. Kursu uğurla başa vuran İsmayıl xüsusi təyinatlı qüvvələrdə qrup komandiri təyin olundu. Qısa müddət ərzində bilik və bacarığı ilə yeni xidmət yerində də fərqləndi, iki dəfə qardaş Türkiyədə və Gürcüstanda komando kurslarının təlimlərində iştirak etdi.

Hazırlığı, döyüş bacarığı yüksək olanlar həmişə böyük uğurlar qazanırlar. Azərbaycanın hərb tarixinə Aprel döyüşləri kimi yazılmış, cəmi dörd gün davam etmiş hərbi əməliyyatlarda gənc zabit dəqiq atəş zərbələri ilə düşmənin xeyli canlı qüvvəsini və döyüş texnikasını məhv etdi. İsmayıl Səmədovun döyüşlərdə göstərdiyi peşəkarlıq və şücaət komandanlığın diqqətindən yayınmadı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cəbhə bölgəsinə səfərləri zamanı hərbçilərlə görüşərkən İsmayılın da əlini sıxıb, ona mükafat təqdim etdi. Bu əlamətdar gün onun həyatında çox mühüm bir hadisə oldu. Cəsur zabit artıq kapitan rütbəsi almışdı.

## Bir-birindən uğurlu əməliyyatlar

27 sentyabr 2020-ci ildə düşmən ağır silahlardan istifadə edərək mövqelərimizi atəşə tutdu. Erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Ordumuzun cəbhə xəttində yerləşən bölmələri qəsbkarların hücumlarının qarşısını qısa müddətdə və qətiyyətlə aldılar. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu əks-hücuma keçdi. Zabit İsmayıl Səmədov da komandiri olduğu bölmə ilə torpaqlarımızı işğalçılardan azad etmək uğrunda vuruşurdu. Onun rəhbərlik etdiyi qrup düşmən arxasına keçərək işğalçıların döyüş ehtiyatlarını, köməyə gedən qüvvələrini məhv edirdilər. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vururdular.

Oktyabrın 11-də İsmayılın komandiri olduğu qrupa olduqca mühüm döyüş tapşırığı verildi. O, qrupu ilə birlikdə Xocavəndin yaxınlığındakı Gorazilli kəndi istiqamətindən düşmən arxasına keçməli və qoşunlarımızın irəliləməsinə mane olan yağılara köməyə gələn qüvvələri zərərsizləşdirməli idi. Düşmənin canlı qüvvə ilə dolu olan maşınları cəsur kapitanın dəstəsinin mövqe tutub gizləndiyi ərazidən keçməyə çalışırdı. Təcrübəli zabit ermənilərlə dolu üç avtomobili dəqiq atəşlə vurdu. İki avtomobildəki düşmən əsgərləri dağlara qaçaraq müqavimət göstərməyə başladılar. Təəssüflər olsun ki, bu döyüşdə zabit İsmayıl Səmədov düşmən snayperinin atəşinə tuş gəldi. Cəsur komandir canından da çox sevdiyi Vətən torpaqlarının azadlığı yolunda şəhid oldu, əbədiyyətə qovuşdu. Onu qoynunda dünyaya göz açdığı doğma kəndində torpağa tapşırdılar.

Atası Məhəmməd kişi deyir ki, İsmayıl heç zaman xidmətin çətinliyini dilinə gətirməzdi, həmişə razılıq edərdi. Hərbi işlərdən, keçdikləri təlimlərdən isə danışmağı heç vaxt xoşlamazdı. Sanki oğlum anadan zabit doğulmuşdu.

Döyüşlərdə göstərdiyi igidliyə, cəsarətə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə kapitan İsmayıl Məhəmməd oğlu Səmədov ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü.

Qəhrəmanın iki övladı - Nurgül və Mehdi vətənə əmanətdir. Həyat yoldaşı Bəsti xanım deyir ki, İsmayılla birgə getdiyi yerlərdən keçmək, xatirələri yenidən oyatmaq çox çətindir: "Yoldaşımın şəhid olduğu yerə gedə bilmirəm. Hələ buna hazır deyiləm. Onunla çox olduğumuz şəhərlərdən, yerlərdən keçməməyə çalışıram. Kədərli xatirələr çox ağır olur, adamı yandırıb-yaxır. Həyəcan keçirmək istəmirəm. Olanları yenidən yaşamaqdan, yenidən o xəbərləri eşitməkdən qorxuram. Uşaqlarım üçün, İsmayılın yadigarları üçün ayaqda dururam. Kaş belə olmazdı. Ancaq nə edə bilərik, Vətən hər şeydən önəmlidir. O canını Vətən yolunda qurban verdi, Qarabağ problemi Mehdilərə, Nurgillərə qalmasın deyə savaşdı. İstədi ki, biz rahat yaşayaq. Övladlarımı onun adına layiq böyütməyə çalışacam".

Zabit İsmayıl Səmədovla çiyin-çiyinə vuruşan gizir, əslən Quba rayonunun Alpan kəndindən olan Cavad Babayev komandirinin qəhrəmanlığından söz açdı: "O, ən ağır döyüşlərdə belə, öndə gedib bizi qorudu, uğurlu əməliyyatlar qurdu. Oktyabrın 4-dən başlayaraq, Cəbrayıl, Füzuli, Hadrut istiqamətlərində şiddətli döyüşlər getdi. Bölüyümüz oktyabr ayının 3-dən 4-nə keçən gecə Cəbrayıl istiqamətində düşmənin televiziya qülləsini qoruyan bir tankını və 8 nəfərlik canlı qüvvəsini məhv etdi. Nəzarətçi qrupumuz ərazidə düşmən snayperlərin olduğunu müəyyənləşdirdi. Əvvəlcə onlardan 3-nü, sonra isə arxadan bizə atəş açan düşmənləri məhv etdik. Oktyabr ayının 10-da komandanlıq Horadiz-Füzuli-Hadrut yolunu yağılardan təmizləmək tapşırığını verdi. Bu əməliyyat zamanı gərgin anlar yaşadıq. Öncə düşmənin 10-a yaxın texnikasını zərərsizləşdirib yolu gediş üçün təmizlədik və əlverişli mövqe tutduq. Ertəsi gün - oktyabrın 11-də Xocavənd istiqamətində ağır, şiddətli döyüşlər oldu. Döyüş zamanı gözlənilmədən işğalçılar üzərimizə böyük qüvvə ilə hücuma keçdilər. Düşmənin çoxlu sayda texnikasını, canlı qüvvəsini məhv etdik. Amma bizim də itkilərimiz oldu. Təəssüflər olsun ki, bu döyüşdə fəxrimiz, Silahlı Qüvvələrimizin dəyərli, təcrübəli zabiti, bölük komandiri İsmayıl Səmədovu itirdik. Komandirimiz düşmənin açdığı snayper atəşindən şəhid oldu. Biz komandirimizi, onun qəhrəmanlığını heç vaxt unutmayacağıq".

Şəhidin adı əbədiləşdirilib. Zaqatala rayonundakı 5 nömrəli tam orta məktəb Vətən Müharibəsi Qəhrəmanı İsmayıl Məhəmməd oğlu Səmədovun adını daşıyır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Maraq dünyamız

# Saat muzeyi

## Bakıda belə bir məkanın olduğunu bilirdinizmi?

**Keçmişi qarşımızda kitab kimi açan muzeyləri ziyarət edəndə, qədimdən qədim olan tarixi abidələrə baxanda özümüzdən asılı olmadan bizi xoş hisslər bürüyür. Bu hisslərin təsiri altında sanki gördüyümüz abidələr, eksponatlar bir anlıq əlimizdən tutub bizi arxada qalmış illərə, əsrlərə aparır. O illərə, əsrlərə ki biz onları nə zamansa tarix kitablarından oxumuşuq. Yəqin elə buna görə də xəyalən uzaq keçmişlərə səyahət etmək üçün yolumuzu muzeylərdən tez-tez salırıq. Muzeylərə hər gedişimizdə isə nəsə dəyərli bir şey öyrənir, bilik və məlumatlarımızı daha da zənginləşdiririk.**

Bəs saat muzeylərini ziyarət etmisinizmi? Məlumat üçün qeyd edək ki, dünyanın inkişaf etmiş bir çox ölkəsində saat muzeyləri fəaliyyət göstərir. Ziyarətçilər həmin muzeylərə həvəslə gedir, saat nümunələrinə maraqla tamaşa edirlər. Zəngin saat muzeylərindən biri Rumıniyanın Ployes şəhərindədir. Bu, Şərqi Avropada yeganə olan Qədim Saatlar Muzeyidir. 1963-cü ildə yaradılan muzeydə 500 növdə gün, qum və su saatları qorunub saxlanılır və nümayiş etdirilir.

Ölkəmizdə də saat muzeyi fəaliyyət göstərir. Bu muzey Bakının qədim kəndlərindən biri olan Maştağada yerləşir. İxtisasca energetik olan və kiçik yaşlarından elektronika dünyasına həvəs göstərən kənd sakini Ramiz Əliyev ömrünün 30 ildən çoxunu bu işə həsr edərək böyük zəhmət bahasına, bir-birinə bənzəməyən və təkrarlanmayan 3 minə yaxın saat növü toplayıb. Bu günlərdə soraqlaya-soraqlaya Ramiz Əliyevin uzun illər ərzində eksponatlarını yığıb topladığı muzeyini görmək üçün onun yaşadığı ünvana getdik.

### Günəş və su saatları...

Əvvəlcə tarixə dönək. Bəşər övladı həmişə yeniliyə, kəşflərə can atıb. Zamanın hiss olunmadan axması, vaxtın keçməsi, gecənin gündüzlə əvəz olunması və yaxud prosesin əksinə baş verməsi insanlar üçün həmişə maraqlı olub. Əsrlər boyu insanlar zamana, vaxta hakim olmaq arzusu ilə onu ölçmək üçün cihazlar, alətlər axtarışında olublar. Sonda vaxtı dəqiqləşdirmək üçün Günəş saatını kəşf ediblər. Günəş saatları ən qədim saatlar hesab olunur. Bu cür saatı düzəltmək misirlilərin qismətinə düşüb. Onlar günəşin hər gün müntəzəm bir hərəkətlə doğmasını, müəyyən vaxtlarda göy üzünün müxtəlif nöqtələrində olmasını, batmasını müşahidə edərək ən qədim saatı kəşf ediblər.

Zaman keçdikcə günəş saatı yavaş-yavaş yerini su saatına verib. Su saatının yaranması eramızdan əvvəl II əsrdə qədim Misirdə yaşamış yunan riyaziyyatçısı, mühəndisi Ktesibiosun adı ilə bağlıdır. Su saatı həmin dövr üçün böyük yenilik hesab olunub. Çünki insanlar günəş saatı ilə vaxtı, zamanı yalnız gündüzlər ölçə bilirdilər. Günəş qürub edəndən sonra zamanı ölçmək olmurdu. Su saatı icad olunandan sonra isə insanlar vaxtı gecələr də ölçə biliblər.

Günəş və su saatlarından sonra qədim insanlar qum saatını icad ediblər. Ələnmiş narın qumu ortası boğma şüşə qaba tökür və sonra qabı tərsinə çevirirdilər. Amma bu saatın yanında gərək kimsə növbə çəkəydi. Çünki qum şüşənin alt hissəsinə tökülüb qurtaran kimi yenidən qab tərsinə çevrilməliydi. Qum saatı demək olar ki, eyni hərəkət və prinsip əsasında işləyirdi.

Bütün bunlardan sonra Orta əsrlərdə mexaniki saatların kəşf olunması zamanın dəqiq ölçülməsinə geniş imkanlar yaratdı. İlk sadə mexaniki saat 1335-ci ildə İtaliyanın Milan şəhərində düzəldilib. İllər ötdükcə mexaniki saat mütəxəssislər tərəfindən daha təkmilləşdirilib. Müasir mexaniki saatı X.Hüygens 1657-ci ildə ixtira edib. Saatın sonrakı təkmilləşməsi ingilis mütəxəssis U.Klementin, C.Qraqamın, sonra yenə də Hüygensin adı ilə bağlıdır. XVI əsrin sonunda dəqiqə əqrəbi, 1760-cı ildə isə saniyə əqrəbi kəşf edilib. Yavaş-yavaş saatlara ayın tarixini, həftənin günlərini göstərən əlavə mexanizmlər yerləşdiriblər. Bütün bunlar insanların vaxtı bilmələrini xeyli asanlaşdırıb.

Daha sonra isə qüllə, divar, stolüstü, cib və qol saatları yaradılıb. İlk cib saatları XIX əsrin əvvəllərində istehsal olunub. 1800-cü ildə isə ilk elektrik və elektromexaniki saatlar buraxılmağa başlanıb. Hazırda saat istehsalı üzrə yeni üsullar işlənib hazırlanmaqdadır. Bu gün saatlar təkcə zamanı dəqiqliyi ilə göstərən mexanizm deyil, həm də insanların cəmiyyətdə çəkisini göstərən vasitəyə çevrilib. Dünyada İsveçrə ənənəvi saat ölkəsi kim tanınır.

### Saat muzeyi, qeyri-adi məkan

Müxtəlif illərdə, müxtəlif ölkələrdə kəşf edilən saatlar hazırda da zamanı ölçməkdə, vaxtı təyin etməkdə insanlara kömək edir, bir növ onlara xidmət göstərir, işlərini xeyli asanlaşdırır. Maştağa kəndinin sakini Ramiz Əliyevin də elə illərdən bəri müxtəlif çeşidli, müxtəlif ölçülü saatları öz vəsaiti hesabına alıb toplamaqda, muzeyi yaratmaqda məqsədi insanlara xidmət etməkdir.

Muzeyə addımımızı qoyanda sanki özümüzü qeyri-adi bir məkanda, zamanın gur axınında hiss etdik. Muzeydə müxtəlif çeşidli, müxtəlif formalı 3 mindən çox saat eyni vaxtda işləyir, zamanı göstərirdi.

Saatların əqrəblərindən eyni anda qopan ritmik səslərin pıçıltısı altında böyük əziyyətlər bahasına muzey yaratmış Ramiz Əliyevin ömür yolu ilə qısaca tanış oluruq. Öyrənirik ki, atası Əlimirzə kişi uzun illər saatsaz işləyib. Sənətinin, işinin peşəkarı olub. Buna görə də kiçik yaşlarından Ramizin ürəyində bu sahəyə sevgi və məhəbbət yaranıb. 1970-ci ilin sonlarında Bakıdakı texniki peşə məktəblərindən keçmiş ittifaqın şəhərlərində oxumağa göndərilən 20 gəncdən biri də o olub. Yekaterinburqda Mühəndis Pedaqoji İnstitutunu bitirib. Əmək fəaliyyətinə Bakının Dərnəgül qəsəbəsindəki 67 nömrəli liseydə peşə istehsalat təlimi ustası kimi başlayıb, sonra müxtəlif vəzifələrdə çalışıb. İndi də energetik kimi fəaliyyətini davam etdirir. Atasının vəfatından sonra onun xatirəsini yaşatmaq üçün saat kolleksiyası yığmağa başlayıb. Yığılan kolleksiya isə yavaş-yavaş bu gün eksponatlarına böyük maraqla baxdığımız muzeyə çevrilib.

### "İstədim ki, Azərbaycanda da Saat muzeyi olsun"

Ramiz deyir ki, nəsillərində ustalıq irsi keçicidir: "Ailəmizdə saatsazlıqla yanaşı, yaxşı rəngsaz da, dülgər də, bənna və başqa sənətkarlar da olub. Ənənə bu gün də davam edir. Atamdan bizə dörd-beş saat yadigar qalmışdı. Mən indiyə qədər onları yaşadığım evdə saxlayıram. Daha da maraqlı olması üçün yaratdığım muzeyə formaca, quruluşca bir-birini təkrarlamayan saatları toplamışam. Yaxşı bilirəm ki, istənilən bir yerdə təkrarçılıq insanı tez yorur, zövqünü oxşamır. Ona görə də çalışmışam ki, saatlar quruluşca bir-birinə bənzəməsin, fərqli olsun. Yalnız bir saat var ki, ondan muzeydə iki ədəddir. O da səbəbsiz deyil. Onların formaları eyni olsa da, işləmə prinsipi bir-birindən fərqlidir. Saatlardan biri irəli, o biri isə geri işləyir. Əvvəllər ziyarətə gələnlərin arasında muzeydə geriyə işləyən saatın olub-olmadığını soruşanlar çox olurdu. İnsanların marağını nəzərə alaraq iki eyni saatı muzeyə qoydum. Sonra bu eynilikdən insanlara zövq verən bənzərsizlik yaratdım. İndi onlardan biri zamanı irəli, digəri isə geri sayır. Öyrəndiyim məlumatlara görə, başqa təyinatlı muzeylərə baxanda saat muzeyləri çox ölkədə yoxdur. Ona görə də çalışıram ki, yaratdığım muzey ölkəmizin, xalqımızın adına layiq olsun. Əslində, mən qarşıma məqsəd qoymamışdım ki, nə vaxtsa muzey düzəldim. Saat toplamaq sadəcə mənim hobbimdir. Amma unutmayaq ki, böyük alovlar kiçik bir qığılcımdan yaranır. Mənim də kiçik hobbim artıq sədləri, sərhədləri aşmaqdadır. Bacardığım qədər muzeydəki eksponatların sayını da, onların formalarını da artırmağa çalışıram. Çünki eksponatlar çoxaldıqca, insanların da maraq dairəsi böyüyür. Bu gün muzeydə dünyanın bir çox ölkəsində istehsal olunmuş ən müxtəlif saatları görmək də, onların səslərini eşitmək də mümkündür. Məktəb, kilsə, vağzal saatlarının zəngi... Divar, qol, cib, günəş, qum saatları, gəmi, stolüstü, zəngli və qədim saatlar... Eksponatlar arasında İsveç, Fransa, Almaniya, İran, Hollandiya, Rusiya və digər ölkələrin də saatlarını görə bilərsiniz. Amma onu da deyim ki, saatların forması, rəngi və başqa əlamətləri fərqli olsa da, eyni funksiyanı yerinə yetirir, vaxtı, zamanı göstərirlər".



Söhbət zamanı bəlli oldu ki, Ramiz Əliyevin topladığı eksponatların bəziləri işlək halda olmayıb. Amma bu, onu həvəsdən salmayıb. Özündən deyən ustaların düzəldib işə sala bilmədiyi həmin saatları alaraq bərpa edib, onların bəzilərinə ikinci, bəzilərinə isə üçüncü həyat verib. Muzeydəki 3 minə yaxın eksponatın arasında çoxlu kişi və qadın qol saatları, cib saatları, divar saatları və digər saatlar var. Kolleksiyada həmçinin üzük boyda olan kiçik qadın qol saatları da ziyarətçilərin diqqətini cəlb edir. Muzeydəki eksponatların arasında dünya işığından məhrum olan insanlar üçün nəzərdə tutulmuş saatlar da ziyarətçilərin diqqətini çəkir. Muzeydəki qiymətli eksponatlardan biri də mexanizmi taxtadan olan XVIII əsrə aid saatlardır. Ramiz müəllim deyir ki, bunlar yüklərlə işləyir. Saatlar işlədikcə yüklər aşağı enir, sonra onu yuxarı qaldırırlar. Beləcə, saat dayanmadan işləyir, vaxtı, zamanı ölçməyinə davam edir. Bu saatlar artıq üçüncü əsrdir ki, dayanmadan işləyir. Qədim və nadir saatlar arasında kəfgirin oynadığı saat da öz orijinallığı ilə ziyarətçiləri heyran qoyur.

### Qədim saatlar, radiolar, plastinkalar...

Eksponatlar arasında indiyə qədər heç yerdə rastlaşmadığımız saatları da gördük. Çünki həmin saatları kolleksioner özü düzəldib. Məsələn, hər 15 dəqiqədən bir zəng vuran orijinal saatlardan biri zamanın bütün göstəricilərini - ayın tarixini, həftənin gününü və ilin hansı ayı olduğunu özündə əks etdirir.

Kolleksiyadakı cib saatları da maraq doğururdu. Xronometr, repitr, gün və ay göstəricisi olan saatlar ziyarətçilərin daha çox diqqətini cəlb edirdi. Fransada istehsal olunmuş mərmərdən düzəldilən, hər saatın tamamında qu quşu səsi çıxaran divar saatları da gözümüzdən yayınmadı. Lampa-saat isə həm estetik, həm də orijinaldır. Bu saat gecələr həm vaxtı göstərir, həm də otağı işıqlandırır. Divar saatlarının bir neçəsi isə göstəriciləri ilə görənləri heyran edir. Onların arasında zınqırovlu, müəyyən fiqurların əks olunduğu, quş səsi çıxaranları da var. Muzeydə Ulu Öndər Heydər Əliyevin, Mustafa Kamal Atatürkün, Məmməd Əmin Rəsulzadənin, marşal Jukovun və başqa tarixi şəxsiyyətlərin şəkilləri olan saatlar da var.

Söhbətimiz zamanı Ramiz Əliyev cib saatları haqqında da qısa məlumat verdi. Dedi ki, cib saatları bütün zamanlarda dəbdə olub. Ondan daha çox ovçular, səyyahlar istifadə ediblər. Bəzi cib saatları var ki, həm də zəng çalır. Bu da yolçuluqla bağlıdır.

### Muzeydə "ağıllı saat"lar da var

Ramiz Əliyev saat ustası deyil, energetikdir. Muzeydə ziyarətçi olsa da, olmasa da, o, tez-tez bu sevimli məkana gəlir, böyük həvəslə topladığı eksponatlarla "görüşür", onlara sığal-tumar çəkir. Kolleksioner deyir ki, saatların ölçüləri, formaları fərqli olsa da, mexanizmləri, iş prinsipləri eynidir. Buna görə də sıradan çıxanda onları eyni bir sistem üzrə bərpa etmək mümkündür.

Muzeydə nümayiş olunanlar arasında "ağıllı saat"lar da var. Bu saatlar elə quraşdırılıb ki, onlar yalnız gündüzlər saatın tamamında zəng çalır. Gecələr isə insanları narahat etməmək üçün "susmağa" üstünlük verirlər.

Eksponatları toplayarkən uşaqlar da unudulmayıb. Muzeydə uşaq saatları da var. Valideynlərinin yanında bu məkana gələn uşaqlar başqa nümunələrlə yanaşı, bu saatlara da böyük maraqla tamaşa edirlər.

Bir zamanlar eksponatları yeni-yeni toplamağa başlayanda bu işinə görə bəzən onu qınayanlar da olub. Amma bu sözlər Ramizin əlini işdən soyutmayıb. O, böyük əziyyətlər bahasına düzəltdiyi muzeyi daha da zənginləşdirmək üçün yeni saat formaları axtarmağa davam edir. Deyir ki, muzeydə olmayan hansısa bir eksponat qarşıma çıxanda necə olursa-olsun, onu əldə etməyə çalışıram: "İstəyirəm ki, muzeydə saat nümunələri daha çox, daha zəngin olsun. Xarici ölkələrə gedəndə də axtarışlarımdam qalmıram".

Muzeydə gördüklərimizdən, Ramiz müəllimin dediklərindən belə qənaətə gəldik ki, onun kimi insanlar ömürlərini mənasız yaşamırlar. Daim çalışırlar ki, içində yaşadıqları cəmiyyət üçün gərəkli, yaddaqalan işlər görsünlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Maarif xadimlərimiz

# Keşməkeşli ömür yolu...



**Vətəninə, xalqına misilsiz xidmətləri ilə Azərbaycan tarixində adı unudulmaz olan məşhur Rəfibəylilər nəslinin nümayəndəsi idi Cavad bəy. O, 1890-cı ildə Gəncə şəhərində dünyaya gəlmişdi.**

O vaxtlar ölkəmiz çar Rusiyasının müstəmləkəsi altında idi. Azərbaycanın bu qədim şəhərinin tarixi adının dəyişdirilməsi, Yelizavetpol adlandırılması da həmin işğalın acı nəticələrindən biri idi.

Hələ XIX əsrin əvvəllərində - 1804-cü il yanvarın 3-də Gəncə xanlığı çar Rusiyası qoşunlarının işğalına məruz qaldıqdan sonra çar I Aleksandrın arvadı Yelizaveta Alekseyevnanın şərəfinə Gəncə şəhəri Yelizavetpol adlandırılmışdı. Çar hökuməti tərəfindən xanlıq üsul-idarəsi ləğv edilmiş, Yelizavetpol dairəsi yaradılmışdı. 1840-cı ildə isə dairə qəzaya çevrilmişdi. Ancaq adı rəsmi şəkildə dəyişdirilsə də, nəinki gəncəlilər, bütün Azərbaycan xalqı bu qədim şəhərlərini öz tarxi adı ilə - Gəncə adlandırırdılar.

Cavad bəy Hadı bəy oğlu Rəfibəyli belə bir zamanda dünyaya göz açdı, böyüdü. O, 1898-ci ildə Yelizavetpol (Gəncə) kişi gimnaziyasında təhsil almağa başladı. 1908-ci ildə gimnaziyanı bitirdi. 1911-ci ildə Kiyev İmperator Universitetinin Tarix-genologiya fakültəsinə əmisi Ələkbər bəy Rəfibəylinin məsləhəti ilə daxil oldu.

Ali təhsilini 1916-cı ildə başa vurdu. Vətəninə qayıtdı. Bir zamanlar oxuduğu Yelizavetpol kişi gimnaziyasına latın dili müəllimi təyin edildi. Cavad bəy Rəfibəyli həmin təhsil ocağında latın dilini tədris edən ilk türk müəllim oldu. Cavad bəy alman, fransız, latın, ərəb, fars və rus dillərini bilirdi.

Müəllim peşəsinə böyük məsuliyyətlə yanaşması, həvəslə çalışması diqqətdən yayınmadı. Çox keçmədi ki, o, Temirxan-Şura Müəllimlər Seminariyasına direktor təyin edildi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın vətənpərvər oğlu Cavad bəy Rəfibəylinin də həyatına böyük ümidlər gətirdi. Yeni hökumətin ölkədə mövcud olan kütləvi savadsızlığın aradan qaldırılması, maarifin inkişafı istiqamətində əsaslı işlər həyata keçirdiyi bir vaxtda o da pedaqoq kimi bilik və bacarığını əsirgəmirdi. 1918-ci il dekabrın 31-də xalq maarif naziri Nəsib bəy Yusifbəylinin əmri ilə Cavad bəy Rəfibəyli Gəncə Gimnaziyasının müfəttişi, 1919-cu il oktyabrın 1-dən isə gimnaziyanın direktoru təyin olundu.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən bütün sahələrdə geniş işlər aparılır, təxirəsalınmaz tədbirlər həyata keçirilirdi. Ölkənin vətənsevər, təəssübkeş övladları müstəqil hökumətin bərqərar olması naminə çalışırdılar. Gəncə Gimnaziyasının direktoru olduğu zaman Cavad bəy Rəfibəyli də təhsil sahəsində mühüm islahatlar apardı. Həmin gimnaziyada iki il ərzində təhsil alan azərbaycanlıların sayının bir neçə dəfə artması Cavad bəyin böyük əməyinin nəticəsi idi.

Gəncə Şəhər Dumasının 1920-ci il aprelin 15-də keçirilən iclasında səs çoxluğu ilə Ağalar bəy Səfikürdski Dumanın sədri, Cavad bəy Rəfibəyli isə onun müavini, Həsən bəy Fəttahov şəhər başçısı, Məşədi Musa Verdiyev və Qafar bəy Rəfibəyov isə bələdiyyə üzvləri seçildilər.

1920-ci ilin aprelində bolşeviklərin hücumu nəticəsində Azərbaycan Xalq Cümhuyyəti süquta uğradı. Ölkədə hakimiyyət bolşeviklərin əlinə keçdi. O vaxtdan Azərbaycanın vətənpərvər övladlarının qara günləri başladı. Cavad bəy Rəfıbəyli də 1927-ci ildə gimnaziyada yeritdiyi türkçülük və millətçilik xəttinə görə Gəncədən uzaqlaşdırıldı.

1927-ci ildə Bakı Dövlət Universitetində "Şərq incəsənəti tarixi" kafedrasına müəllim göndərilən Cavad bəy incəsənətşünaslıq fənnindən dərs deməyə başladı. Universitetin dosenti adını 1930-cu ildə aldı. 1941-ci ilədək o eyni zamanda Azərbaycan Həmkarlar İttifaqları Şurasının kino ekskursiyası bürosunda mühazirəçi, Bakı Tikiş Tresti təlimatçılar kurslarının müdiri, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda lektor, Azərbaycan Dövlət Rəssamlıq və Azərbaycan Dövlət Teatrı məktəblərində incəsənət tarixi müəllimi, Azərbaycan Qiyabi Texniki Təhsil İnstitutunun rus şöbələrində Azərbaycan dili müəllimi, SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialı Azərbaycan şöbəsində elmi əməkdaş, Elmlər Akademiyasının aspiranturasında müəllim, Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda rus və Azərbaycan dilləri kafedrasında müəllim vəzifələrində çalışdı.

Cavad bəy Rəfibəyli 1941-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin elmi məsləhətçisi və muzeyin bədii şurasınm üzvü seçildi. O, Azərbaycanın mədəniyyətinə aid bir sıra sanballı əsərlərin müəllifi kimi də tanındı.

Cavad bəyin beş övladı - üç qızı, iki oğlu var idi. Həyatı axarına düşmüş kimi görünsə də, əslində, sovet hökuməti onu da "unutmamışdı". Sovet hökumətinin repressiya qılıncı Cavad bəy Rəfibəylinin də başının üzərində dolaşırdı.

1941-ci il sentyabrın 1-də Cavad bəy ailəsi ilə birlikdə Qazaxıstana sürgün olundu. Məşəqqətli sürgün həyatı 1947-ci ildə bitdi. Sürgündən azad edildikdən sonra Bakıya dönən Cavad bəy Rəfibəyli Bakı Dövlət Universitetində və İncəsənət İnstitutunda yenidən fəaliyyətə başlasa da, davam etdirə bilmədi. Çünki sovet hökuməti dövründə sürgündən qayıdanların paytaxtda yaşaması və işləməsi müşkül məsələ idi. Cavad bəy Rəfibəyliyə Bakıda çalışmaq imkanı verilmədi. O, Gəncəyə getdi. Orada pedaqoji fəaliyyət göstərdi. Gəncədə rus dili müəllimi işlədi.

Maarif xadimi Cavad bəy Rəfibəyli 1956-cı il yanvar 28-də vəfat etdi. O, doğma vətəni Azərbaycanı yenidən müstəqil görmək ümidi ilə bu dünyadan köçdü. 1990-cı illərdə Sovet İttifaqının dağılması, Azərbaycanın yenidən müstəqilliyinə qovuşması bəzi vətənsevərlərimiz kimi Cavad bəy Rəfibəylinin də görmədiyi, amma gerçəkləşən arzusu oldu...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Şah Abbas Namə" tamaşasının premyerası keçirilib

**Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında yazıçı-dramaturq İlqar Fəhminin "Şahnamə" pyesi əsasında hazırlanan "Şah Abbas Namə" tamaşasının premyerası keçirilib.**



Teatrdan bildirilib ki, ikihissəli tarixi dram Səfəvi-Qızılbaş imperiyasının yüksəliş dövrünə həsr olunub.

Yeni səhnə əsərində rolları Xalq artisti Qurban İsmayılov, Əməkdar artistlər Nicat Kazımov, Elnur Kərimov, Nofəl Vəliyev, Elnur Hüseynov, Rasim Cəfər, aktyorlar Sənan Kazımlı, Niyaz Qasımov, Mətləb Abuşov, Kərəm Hadızadə, Aydın Dəmirov, Anar Seyfullayev, Ceyhun Məmmədov, Elşən Hacıbabayev və başqaları ifa ediblər.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı teatrın baş rəssamı Mustafa Mustafayev, musiqi tərtibatı Aygül Quliyeva, rejissor Səbinə Məmmədzadə, rejissor assistentləri Fuad Cavadzadə və Nəsibə Canəliyevadır.

# Silahlı Qüvvələr Günü münasibətilə Ağstafada sərgi, konsert və ustad dərsi keçiriləcək

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ağstafa şəhər Heydər Əliyev Mərkəzində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə silsilə tədbirlər keçiriləcək.**




Nazirlikdən bildirilib ki, iyunun 25-də Azərbaycan Fotoqraflar Birliyi və Azərbaycan Dövlət Rəsm Qalereyası ilə birgə "Zəfərin ruhu" adlı səyyar rəsm və fotosərgi açılacaq. Saat 17:00-da Heydər Əliyev Mərkəzində keçiriləcək sərgidə Azərbaycan Ordusunun qəhrəmanlığını, xalqımıza bəxş etdiyi əbədi Zəfər ruhunu, Qarabağımızın gözəlliklərini əks etdirən əsərlər nümayiş olunacaq.

Həmin gün saat 20:00-da Heydər Əliyev Mərkəzinin həyətindəki açıq konsert meydanında Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası nəzdində xalq çalğı alətləri orkestrinin konsert proqramı təqdim ediləcək.